# Sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq

Prezident İlham Əliyev martın 13-də Bakıda "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda keçirilən XII Qlobal Bakı Forumu zamanı "Euronews" televiziyasına müsahibə verib. Dövlətimizin başçısı həmin müsahibədə bir sıra məsələlərə aydınlıq gətirib.

Əvvəlcə müxbirin müxtəlif ölkələrdən 50-dən artıq fəaliyyətdə olan, sabiq dövlət və hökumət başçısının iştirakı ilə keçirilən XII Qlobal Bakı Forumu ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev beynəlxalq məsələlərə yanaşmanın formalaşmasında bu Forumun böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, burada müxtəlif fikirlərin kombinasiyası mövcuddur: "Onlar heç də üst-üstə düşmür və bunun özü müsbət haldır".

Daha sonra digər sualları cavablandıran Prezident İlham Əliyev dünya nizamından söz açıb və artıq dünya nizamının mövcud olmadığını dilə gətirib. Bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir deyən dövlətimizin başçısı bu vəziyyətdən çıxış yolunu da göstərib: "...hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır". Prezident, ölkələrin beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verilməsinin vacibliyini diqqətə çatdırıb. O, həmçinin beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsinin olduğunu da sözlərinə əlavə edib.

Dövlətimizin başçısı, həmçinin milli maraqlarımız məsələsində ölkəmizin heç kəsə və ya heç bir təsisata arxalanmadığını "Euronews" televiziyası vasitəsilə dünya ictimaiyyətinə bir daha çatdırıb. Bu xüsusda o, digər dövlətlərə belə bir mesaj da verib: "Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik - hər bir ölkə anlamalıdır ki, o, öz taleyinin sahibidir. Onlar bunu nə qədər tez başa düşsələr, bu, onlar üçün bir o qədər də yaxşı olar. Çünki əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək, həmin şəxs gəlib sizdən hesabat istəyəcək".

Bu kimi məsələlərə Azərbaycan formatından yanaşan Prezident bildirib ki, ölkəmiz öz siyasətini bu şəkildə qurub və təcrübəmizin də uğurlu olması sübuta yetirilib: "Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir". Şübhəsiz, bütün bunlar ölkəmizin inkişafının düşünülmüş şəkildə aparıldığını bir daha təsdiq edir.

Onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olduğunu bildirən Prezident İlham Əliyev növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaradılmasını, sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağı, baş verən böhranlardan regionumuzun qorunmasını günün tələbləri kimi diqqətə çatdırıb: "Yəni, biz belə bir təcrübəyə malikik və sadəcə, bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik".

Prezidentin fikrincə, bu gün dünya düzəninin həqiqi sülhə çox böyük ehtiyacı var. Buna belə bir misal da göstərib. Qeyd edib ki, otuz il ərzində Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi: "Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu, müharibənin sona çatması demək deyildi. Sadəcə, transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir". İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, hələ də bizim Ermənistanla sülh müqaviləmizin olmadığını xatırladan dövlətimizin başçısının fikrincə, bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür: "Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq". Şübhəsiz, eyni yanaşmanı dünyanın bütün digər hissələrinə - Yaxın Şərqə və Afrikaya da şamil etmək olar.

Dövlətimizin başçısı, həmçinin təəssüflə vurğulayıb ki, hazırda münaqişələrin sayı artmaqdadır, yalnız Qarabağda olan münaqişə öz həllini tapıb. Özü də bu beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir.

ABŞ-la bağlı məsələyə toxunan Prezident İlham Əliyev sözügedən ölkənin əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirdiyimizi vurğulayıb: "Onların mövqeyi bizim milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət idi. Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq".

**Azad MƏMMƏDOV,**
**«Qəbələ»**

# Könlünün məhbubu Vətən olanlar

Hər kəsin dünyaya göz açdığı məkandan başlayır Vətən. Havasını udduğu, torpağında ayaq atıb yeridiyi, ona həyat verib dünyaya bəxş edən valideyinlərinin isti ocağının qurulduğu, bu ocağın istisində ilk dil açdığı məkandır o Vətən! Təbiətinin gözəlliklərinə heyran olduğu, tarixinin qəhrəmanlığına "söykənərək" ilbəil yaşa dolduğu, uşaqlıq illərinin ən gözəl və şirin, sehrli nağılını yaşadığı məkandır Vətən! Addım atıb həyata atılmağından gözəl və sağlam bir pöhrə kimi yetişəndən sonra ona doğma olan o məkanın zərrəcik olduğunu dərk edərək əsas hüdudlarını öyrənmək istədiyi məkan - diyardır Vətən.

Bu insan adını yaşadan hər məxluqa aiddir. Axı insan ilk növbədə vətənilə tanınar; Vətən dedikdən sonra milliyəti, xalqı, dili biruzə olunar. Vətən hər kəsin ata - ana, dədə - baba yurdu sanılar. Təsadüfi deyil ki, insan hər hansı can ağrısı hiss edən kimi "ana" deyər... Həm də öz milli dilində. Axı hər millətin körpəsi ilk dil açanda "ana" kəlməsi ilə dil açar. Məktəbdə isə "Ana" sözündən sonra "Vətən" sözünün məna çalarları öncə öyrədilər. Bax, beləcə Ana Vətən övladı kimi böyüyər hər bir vətənpərvər insan. Vətənpərvər insanlarda isə vətən sevgisi hədsiz olar. Onlar vətəni gözəl şairimiz Abbas Səhhət şeirində deyildiyi kimi, könlünün sevgili məhbubu sanarlar...

Tarixin xronologiyasına diqqət etdikcə qanlı müharibələr, qəhrəmanlıqlar, məğlubiyyət və qələbələr haqqında öyrənirik. İnsanların var - dövlət hərisliyi, hegamonluq iddialarının sonudur müharibələr. Müharibələr isə günahsız insanların da həyatının sonu ilə nəticələnən vəhşətdir.

1-ci Qarabağ Müharibəsindən 30 il keçdikdən sonra Vətən Müharibəsi baş verdi. 30 illik siyasi mübarizədən sonra işğal altında qalan ərazilərimizin azad olunması, faşist xarakterli qonşu dövlətin və onun himayədarlarının xalqımıza bəxş etdiyi faciə və soyqırım hadisələri cavabsız qala bilməzdi. Ölkəmizin Ali Baş Komandanı, ölkə prezidenti İlham Əliyev 2020-ci ilin 27 sentyabrında qisas müharibəsinin başlandığını elan etdi. Bu müharibə labüd idi. Xalqın igid, cəngavər oğulları ölkə başçısının səsinə səs verdi, silaha sarıldı. 44 gün davam edən bu müharibədə şəhadət yolçuları və sağlamlığını qurban verən qazilərimiz ölümün "gözünə" dik baxdılar. Qəhramanlıq nümunəsi göstərdilər. Bu igidlər arasında qəbələli gənclər də var idi... Onlar insanlığın ən uca zirvəsində ən ali titul qazandılar: bu şəhid adı idi. Şəhidlər həyatlarını, bahar ömürlərini əbədiləşdirən və könüllərdə əbədi yaşam qazanan igidlərdir. Mart ayında doğum günü olanlar isə əsil bahar övladlarıdır. Baharda doğularaq, bahar ömrü yaşayanların həyat nisgili qəlbimizi acıdır, ancaq əbədi olaraq ürəklərdə yaşam tərzi qazanmaq isə hər kəsə nəsib olmaz.

Onlar - Mart doğumlular Qəbələ şəhidləri arasında 5 nəfərdir. Onları sizə tanıdaq!

1. **Natiq İsmayılov** 5 mart 1980-cı ildə Bunud kəndində anadan olmuş, 18 oktyabr 2020-ci ildə şəhid olmuşdur.
2. **İsmayıl Qurbanov** 6 mart 2001-ci ildə Böyük Pirəlli kəndində anadan olmuş, 28 sentyabr 2020-ci ildə şəhid olmuşdur.
3. **Aqşin Qədirzadə** 10 mart 1999-cu ildə Seyidqışlaq kəndində anadan olmuş, 18 oktyabr 2020-ci ildə şəhid olmuş, nəşi 18 dekabrda tapılaraq dəfn olunmuşdur.
4. **Adəm Heydərov** 20 mart 2000-ci ildə Bum kəndində anadan olmuş, 17 noyabr 2020-ci ildə şəhid olmuşdur.
5. **Novruz Niftəliyev** 25 mart 2004-cü ildə Nohurqışlaq kəndində anadan olmuş, 2 aprel 2023-cü ildə şəhid olmuşdur.

Onlar Vətən uğrunda döyüşmüşlər. Bahar doğumlu, bahar ömürlü eloğlularımız! Cismən həyatdan köçsələr də əbədiyyən ürəklərdə yaşayan, tarixi yenidən yazan, Zəfər tarixinin yaradıcılarıdır onlar!

Məkanları cənnət olsun! Biz onlarla qürur duyuruq!

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Arzular çin olsa da...

Hələ uşaqlıqdan qəlbi arzularla dolu idi. Arzularını qova-qova yaşayırdı... Son arzusuna çatsın deyə düşündükcə yeni bir arzu doğardı qəlbində... Bəzən təklik onu sıxırdı, başqa uşaqlar kimi bacı-qardaşları ilə ən adi xırdalıqlar üstündə «söz-sözə gəlmək», oynamaq, istək və arzularını bölüşmək istəyərdi. Uşaqlıq oyunlarında gah qalib, gah məğlub olmaq... yox, yox, o heç vaxt məğlub olmaq istəməzdi. Qəlbindəki körpə hiss və duyğularını ailə içində ona daha yaxın olan uşaqlarla - bacı-qardaşları ilə bölüşmək istəyərdi. Axı körpə də olsa, gənc və yaşlı da olsa - insan həmişə sevincini də, kədərini də qismən də olsa kiminləsə bölüşmək istəyərdi. Ən yaxın dostları idi valideynləri. Onları daima birgə görmək, valideyn arzularını reallaşdırmaq qəlbinin ən böyük arzusu idi. Ətrafında ona yaxın olan dostları çox olsa da, valideynləri uşaqlıq çağlarının ən yaxın sirdaşları idi.




Evin tək övladı olmaq hələ körpəlikdən insanda daha çox məsuliyyət hissi formalaşdırır. Məhz buna görə də Şəhriyar də hər sahədə nümunəvi olmaq, arzu seçimində əsil kişi sənəti seçmək və arzularını reallaşdırmaq istədi... Ata onun bu seçimi ilə qürur duysa da, ana ondan ayrı qalmaq istəmədiyi üçün narahatlığını bildirmişdi. Ancaq Şəhriyar seçdiyi peşənin geyim formasına belə sevgi və qürurla baxar, xalqının 30 il əvvəl yaşadığı faciələrin, Vətəninin işğal altında qalan torpaqlarının acısının, günahsız insanların ölümünün, 4 il davam edən Qarabağ müharibəsinin və illərlə nadan qonşu dövlətin törətdikləri terror hadisələrinin qurbanlarının, bir sözlə, cəmi şəhidlərimizin qisasını almaq niyyəti ilə arzularını reallaşdırmaq istəyirdi. Məhz ona görə də əsil hərbçi kimi yetişmək istəyirdi... Və yetişdi də...

Şəhriyar Ramiz oğlu Əlizadə Qəbələnin Vəndam qəsəbəsində doğulmuş, 1 saylı orta məktəbində ibtidai sinifə getmişdir. Ailə vəziyyəti ilə sonralar Bakı şəhərinə köçmüş, təhsilinə davam etmişdir. O, hələ uşaqlıqdan Şuşanı azad görmək, o torpaqlara sevinclə «ayaq atmaq» istəyirdi. Bu istəklə də Şəhriyar əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Litseyi, ardınca Heydər Əliyev adına Hərbi İnstitutu bitirmişdir. Şəhriyar 2018-ci ildən Qazax rayonundakı «N» saylı hərbi hissədə rabitəçi kimi fəaliyyət göstərmişdir.

Şəhriyar 2020-ci ilin sentyabrında başlanan 44 günlük müharibədə igidliklə döyüşmüşdü. O, xüsusi təyinatlı qüvvələrin qruplarına qoşularaq Xocavənd, Şuşa, Kəlbəcər, Laçın istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Qalib ölkənin qalib əsgəri kimi Şuşa və eləcə də azad olunan torpaqlara ayaq basmış, şəhidlərimizin qisiasını bacarıqla almışdır. Azərbaycan ordusunun hərbi qulluqçusu Şəhriyar Əlizadə 2023-cü il martın 5-də Şuşa - Turşsu - Xəlfəli yolunda qeyri-qanuni erməni birləşmələrinin törətdikləri növbəti təxribatın qarşısını alarkən şəhid olmuşdur. Belə ki, həmin gün qanunsuz erməni silahlı dəstələri Ermənistandan Qarabağ iqtisadi rayonuna silah-sursat və şəxsi heyət daxil etməyə cəhd göstərmişdi. Qanunsuz hərbi daşımalar həyata keçirmiş nəqliyyat vasitələri ordumuz tərəfindən saxlanılmışdı. Yoxlama zamanı qarşı tərəf atəş açmış, Şəhriyar insident zamanı yüksək döyüş nümunəsi göstərərək erməni hərbçilərini məhv etmiş və şəhid olmuşdu. Onun nəşi ikinci Şəhidlər Xiyabanında torpağa tapşırılıb...

Martın 5-də onun anım günü keçirildi. Şəhidliyinin ikinci ildönümündə Bakının və Qəbələnin, eləcə də müxtəlif bölgələrdən gələn şəhid valideynləri, şəhidin əzizləri, müəllimləri, Səbayel Rayon İcra Hakimiyyətinin nümayəndələri, döyüşçü dostları və bir sözlə, şəhidini sevən, vətənpərvər insanlar iştirak etmişlər.

Şəhriyar ən ümdə arzusuna çatdı, qalib ölkənin qalib əsgəri kimi o torpaqları azad edərkən igidliklə döyüşdü, Zəfər yazan əsgər oldu. Vətən və xalqının müdafiəsində də şəhid oldu. Ondan sonra isə qalib ölkə və qürur hissi ilə birgə arzuları üreyində qalmış, gözəllik və sevinci gözündə donan, az müddətdə illərin yaşlısına çevrilmiş həsrət baxışlı ana və qəddi əyilmiş ata qaldı bu dünyada. Tək övladlarını Vətənin azadlığı uğrunda şəhid verən valideynlərini isə bu həyatda yaşadan Şəhriyarın igidliyinin, qürurunun xatirələri, onun arzularının ən başlıcasına yetişməsi... Şuşa qartalı olan övladlarının öz peşəsinin qəhrəmanı olduğunun sübutu!

Məkanın cənnət olsun, igidim!

**BİBİXANIM.**